**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

Əlyazması hüququnda

**İLAHƏ SİYAVUŞ qızı DADAŞOVA**

# MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATINDA SƏNƏDLİ - BİOQRAFİK NƏSRİN POETİKASI
**(Müstəqillik dövrü materialları əsasında)**

**5716.01 ─ Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI ─ 2018**

Dissertasiya işi Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** filologiya üzrə elmlər doktoru, professor
**Vaqif Soltan oğlu Verdiyev**

**Rəsmi opponentlər:** filologiya üzrə elmlər doktoru, professor
**Alxan Bayram oğlu Məmmədov**

filologiya üzrə elmlər doktoru, professor
**Təyyar Salam oğlu Cavadov**

**Aparıcı müəssisə:** Azəbaycan Milli Elmlər Akademiyası N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azəbaycan ədəbiyyatı şöbəsi

Müdafiə "____" __________2018-ci il saat "____" -da Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı, Z. Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___" ____________ **2018**-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, fəlsəfə üzrə elmlər doktoru, professor əvəzi:** **Mətanət Əli qızı Abdullayeva**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müasir Azərbaycan nəsri yalnız qədim tarixə malik zəngin ədəbiyyatımızdan deyil, dünya ədəbiyyatından da bəhrələnmiş, mütərəqqi ənənələri yaşadaraq formalaşmış, bəşəriliklə bərabər, milliliyini də qorumuşdur. Belə axtarışlar ədəbiyyatın inkişafını, daim yenilənməsini təmin etmişdir. Müasir ədəbi-nəzəri fikrin formalaşması və inkişafı istiqamətində ilk addımlar ötən əsrin 60-cı illərindən atılmış, müxtəlif problemlərə, həyata, insana, sənətə kifayət qədər fərqli aspektdən yanaşılması tərzi ilə diqqəti cəlb etmişdir. 1960-cılar və onların davamçıları toxunduqları məsələlərə novatorcasına yanaşmış, poetik məsələlərin tədqiqi ilə məşğul olmuş, ədəbiyyatımızda yeni insan konsepsiyası irəli sürmüşlər. Anar, Elçin, M.Süleymanlı, Ç.Hüseynov, İ.Muğanna, Ə.Cəfərzadə, S.Azəri, Y.Səmədoğlu, S.Əhmədli, M.Oruc, V.Babanlı və başqa sənətkarların əsərləri ideyası, mövzu aktuallığı ilə ictimaiyyətin, ədəbi tənqidin, geniş oxucu kütləsinin diqqətini cəlb etmiş, təhlilə cəlb olunmuşdur. Onların sənədli-bioqrafik əsərlərinin təhlili də zəruri və əhəmiyyətlidir. Bu əsərlər real həyatla birbaşa bağlıdır və gündəlik hadisələri, dünənin həqiqətini özündə təzahür etdirir. Burada cəmiyyəti düşündürən suallara cavab tapmaq məqsədilə aparılan axtarışlar, diqqətin qlobal problemlərə yönəldilməsi, milli, mənəvi dəyərlərin məhv edilməsinə qarşı etiraz səsinin ucaldılması məsələsi onların aktual problemlərə toxunduğunu söyləməyə əsas verir.

Birbaşa həyatdan götürülən, konkret faktlara, dövrünün tarixi hadisələrinə istinad edib reallığı əks etdirən sənədli-bioqrafik əsərlər poetik struktur baxımından mükəmməlliyi ilə də diqqəti cəlb edir. Tərcümeyi-hal ədəbiyyatında haqqında söhbət açılan insanların dövrünün, mühitinin mənzərəsi yaradılır və əsərlərdə onların məişəti, fəaliyyəti barədə verilən məlumat həmin insanları tanıtdırmaq məqsədi daşıyır. Burada məşhur yazıçıların, dövlət və din xadimlərinin, xalqını, peşəsini sevən insanların həyatı əsas götürülür. Lakin bəhs edilənlər yalnız bir şəxsin, bir ailənin tərcümeyi-halı ilə məhdudlaşmır. Həmin əsərlərdə ömür yoluna nəzər salınan insanlar elə şəxsiyyətlərdir ki, onların yalnız yaradıcılıq idealları deyil, həyatları da vətən, millət, dövlətçiliklə birbaşa bağlıdır. Yazıçının məqsədi xalqa, əqidəsinə sadiq qalaraq keçmişə, bu gününə sahib çıxmaqdır. O, yüksək amallar naminə mübarizə aparaркən xalqın sevincini, kədərini şəxsi sevinci, kədəri kimi yaşadığı aydın şəkildə duyulur. Yazıçı həyat hekayəsi olan dünənin həqiqətlərini, mühitin gerçəkliyini, baş verən hadisələri qələmə alır, keçmişi mühafizə edir.

Sənədli-bioqrafik nəsrdə bioqrafiya ilə yanaşı, xalqın həyatına, ictimai-siyasi məsələlərə də yer verilir. Qarabağ hadisələri yazıçının və bioqrafi-

yasından bəhs edilən digər insanların həyatının bir hissəsini təşkil etməsi dissertasiyada konkret faktlara istinadən əksini tapmışdır. Belə problemlərə toxunulması da mövzunun aktuallığına dəlalət edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Azərbaycan ədəbiyyatında müstəqillik dövründə yazılan sənədli-bioqrafik nəsrin elmi-nəzəri səviyyədə şərhini vermək, ədəbiyyata gətirdiyi orijinallığı, çağdaş nəsrin təkamülü prosesində başlıca tendensiyaları üzə çıxarmaq və bu prosesə dair bitkin elmi təsəvvür əldə etməkdən ibarətdir. Qarşıya qoyulan məqsədə nail olmaq üçün başlıca olaraq aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

–Azərbaycan, həmçinin dünya ədəbiyyatında sənədli-bioqrafik nəsrin ilkin nümunələri barədə məlumat vermək, təşəkkül tarixinə nəzər salmaq, spesifik xüsusiyyətlərini müəyyənləşdirmək;

– Sənədli-bioqrafik nəsrin Müasir Azərbaycan ədəbiyyatındakı yerini müəyyənləşdirmək, ədəbiyyatımızda onun ilkin nümunələrinin yarandığı vaxtdan XXI əsrin ilk onilliyi də daxil olmaqla, keçdiyi yola nəzər salmaq, bu zaman kəsiyində qələmə alınan sənədli, tarixi, sənədli-bioqrafik əsərlərin mövzu və ideyası ilə yanaşı, bədii xüsusiyyətlərinə diqqət yönəltmək;

– Sənədli-bioqrafik nəsrin yeni yaranan nümunələrini ətraflı şəkildə filoloji təhlilə cəlb etmək, o cümlədən, yazıçını düşündürən mənəvi-psixoloji problemlər və digər məsələlər üzərində dayanaraq əsərlərdə problemin həll olunması mexanizminə dair fikir söyləmək;

–Bu mövzuda yazan sənətkarların üslubunun spesifik xüsusiyyətlərini müəyyənləşdirmək, çağdaş ədəbi prosesin digər nümayəndələrinin yaratdığı bədii nümunələrlə fərdi yazı tərzi, üslub özəlliyi baxımından müqayisələr aparmaq;

–Tənqid və ədəbiyyatşünaslığın müəlliflərin avtobioqrafik yaradıcılığına münasibətini elmi-nəzəri təhlil süzgəcindən keçirmək;

– Sənədli-bioqrafik nəsrdə insan və zaman, insan və cəmiyyət problemlərinin bədii-fəlsəfi inikas özəlliklərini müəyyənləşdirib dəyərləndirmək;

– Sənətkarların həyat hekayələrindən bəhs edərkən toxunduqları sosial-siyasi hadisələrə də diqqət yetirib müəyyən nəticəyə gəlmək;

– Tədqiqatın sonunda alınan nəticələri ümumiləşdirmək.

**Tədqiqatın mənbələri.** Tədqiqat zamanı Anarın "Sizsiz", "Mübarizə bu gün də var", Elçinin "İlyas Əfəndiyev: şəxsiyyəti və sənəti", S.Azərinin "Tələbə məhbusun etirafları", V.Babanlının "Gizlinlər", E.Mehrəliyevin "Tale döyüşü", M.Orucun "Son dayanacaqlardan biri", Ə.Cəfərzadənin "Rübabə Sultanım", "Eşq sultanı", Q.Sadıqzadənin "Son mənzili Xəzər oldu", R.Hüseynovun "Əbədi Cavid", S.Əhmədlinin "Axirət sevdası", "Yazılmayan yazı"

və s. kimi mövzumuzla birbaşa bağlı olan çoxsaylı əsərləri əsas material kimi götürülmüşdür. Prof. H.Ənvəroğlunun "Azərbaycan romanının inkişaf problemləri", prof. X.Əlimirzəyevin "Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları", prof. A.Məmmədovun "Nəsrin poetikası: (XIX əsrin II yarısı)", prof. V.Sultanlının "Azərbaycan ədəbi tənqidi", prof. R.Əliyevin "Ədəbiyyat nəzəriyyəsi" və digər elmi-nəzəri materiallar da tədqiqatın mənbələri sırasına daxildir.

**Mövzunun işlənmə səviyyəsi.** Müstəqillik dövrü nəsrimizdə sənədli-bioqrafik əsərlərlə mövzu baxımından səsləşən memuar ədəbiyyatı bir sıra tədqiqatçılar tərəfindən tədqiq olunmuşdur. Filologiya üzrə fəlsəfə doktoru Eyvaz Eminalıyev "Azərbaycan milli memuar ədəbiyyatı", filologiya üzrə elmlər doktoru Nailə Səmədova "Azərbaycan memuar ədəbiyyatının yaranması, təşəkkülü və inkişaf mərhələləri" (2007), "İnsan, zaman və həyat həqiqəti" (2011) adlı kitablar nəşr etdirsə də, bunlar sənədli-bioqrafik nəsrə deyil, xatirə ədəbiyyatına aiddir. Rus ədəbiyyatşünaslığında Aleksandr Qaliç 1984-cü ildə "Müasir bədii sənədli-bioqrafik nəsr. Janrların inkişaf problemləri" adlı tədqiqat işi yazmışdır. Azərbaycan ədəbiyyatında sənədli-bioqrafik nəsrin poetikasına dair yazılan ilk tədqiqat işi isə təqdim etdiyimiz dissertasiyadır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti müstəqillik dövründə qələmə alınan sənədli-bioqrafik nəsr əsərləridir. Müasir Azərbaycan ədəbiyyatında önəmli mövqeyə malik olan sənədli-bioqrafik nəsr nümunələrində aparıcı mövzular, aktual problemlər, sənət nümunələrinin ideya-məzmun xüsusiyyətlərinin müəyyən edilməsi, poetika məsələlərinin tədqiqi dissertasiyanın predmetini təşkil edir.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Araşdırma zamanı tarixilik prinsipi və sistemli təhlil üsulu əsas götürülmüş, tarixi-müqayisəli təhlil metodundan istifadə edilmişdir. Dissertasiyada mövzuya uyğun olaraq mövcud filoloji fikrin nəzəri-elmi nailiyyət və prinsiplərinə, bu sahədə ədəbiyyatşünaslığın əldə etdiyi zəngin təcrübəyə istinad edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanda ilk dəfə olaraq sənədli-bioqrafik nəsr ətraflı şəkildə tədqiqata cəlb edilmiş, yalnız mövzu və ideya deyil, dil-üslub baxımından da incələnmişdir. Sənətkarlara, onların sənədli-bioqrafik əsərlərinə yaşadıqları dövrün tələblərinə, əsas götürdükləri prinsiplərə nəzər yetirərək müqayisəli şəkildə münasibət bildirilmişdir. Müstəqillik dövründə qələmə alınan sənədli-bioqrafik nəsr təhlilə cəlb edilərkən sosial-psixoloji və mənəvi-etik problemlər araşdırılmış, bu problemlərin bədii həlli elmi şəkildə ümumiləşdirilmişdir.

Tədqiqata cəlb edilən əsərlərdə dil-üslub yeniliyi, fərqli təhkiyə üsulu, bədii təsvir və ifadə vasitələrinin işlənmə məqamlarına da əhatəli şəkildə diqqət yönəldilmişdir. Burada insanın daxili aləmi, psixoloji ovqatı real hadisələr

zəminində təqdim edilmişdir. Gerçəklik, mühit və insanlar arasındakı sosial, siyasi, etik münasibətlərə diqqət yönəldilmişdir. Yaxın keçmişə qədər qeyri-müəyyən olan və ya yanlış verilən məqamlara diqqət yönəldib məlumatın dəqiq şəkildə təqdim edilməsi, onlara münasibət bildirilməsi də tədqiqatın elmi yeniliklərindəndir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

1. Sənədli-bioqarafik nəsrin spesifik xüsusiyyətləri.
2. Sənədli-bioqrafik əsərlərin ədəbiyyatımızda, xüsusilə, müstəqillik dövrü nəsrimizdə xüsusi mövqeyi və əhəmiyyəti.
3. Sosial-siyasi hadisələrin sənədli-bioqrafik nəsrdə, əsasən, sənədli-bədii şəkildə əks olunması.
4. Sənədli-bioqarafik nəsrin janr tipologiyası. Sənədli-bioqrafik nəsrlə Memur janrı arasında oxşar və fərqli məqamların olması.
5. Sənədli-bioqrafik nəsrdə üslub problemi.

**Dissertasiyanın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işi indiyədək araşdırmaya cəlb edilməyən müstəqillik dövründə yazılan sənədli-bioqrafik nəsr nümunələrinin geniş şəkildə təhlil edilməsi, bir çox məqamların araşdırılması və onların ədəbi-nəzəri tədqiqi baxımından önəm kəsb edir.

Mövzunun praktik cəhətdən əhəmiyyəti isə bu mövzu ilə maraqlanan elmi ictimaiyyət üçün baza xarakteri daşımasıdır. Bu dissertasiya işi tanınmış simaların, istedadlı yazıçıların sənədli-bioqrafik nəsrinin tədqiqi zamanı əhəmiyyətli olacaq, elmə öz töhfəsini verəcəkdir.

Elmi işin nəticələrindən ali məktəbin humanitar fakültələrində, fasiləsiz təhsilin bakalavr, magistratura pillələrində mühazirə və seminarlarda, xüsusi kursların tədrisində istifadə edilə bilər.

**İşin aprobasiyası:** Dissertasiya AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Elmi Şurasında təsdiq olunmuşdur. Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın başlıca müddəaları xaricdə ("Alfred Nobel adına Dnepropetrovski Universitetinin xəbərləri"), respublikanın müxtəlif elmi jurnallarında ("Dil və ədəbiyyat", "Bakı Universitetinin xəbərləri", "Filologiya məsələləri" və s.), elmi-nəzəri, elmi praktik konfranslarında (Doktorantların və gənc tədqiqatçıların XVII, XVIII və XIX Respublika elmi konfransı və s.), beynəlxalq simpoziumlarında (Gənc tədqiqatçıların I Beynəlxalq elmi konfransı, VII Beynəlxalq Türk Mədəniyyəti, İncəsənəti və Mədəni irsin Mühafizəsi Simpoziumu və s.) məqalələr və tezislər şəklində çap olunmuşdur.

**Dissertasiya işinin quruluşu:** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində problemin aktuallığı, tədqiqatın elmi yeniliyi, elmi nəzəri və praktik əhəmiyyəti əsaslandırılır, mövzunun elmi araşdırılma səviyyəsi şərh olunur, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, tədqiqatın metod və mənbələri göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar təqdim olunur, tədqiqatın aprobasiyası və dissertasiyanın quruluşu haqqında məlumat verilir.

Dissertasiyanın **"Nəsrdə sənədlilik və bədiilik vəhdəti"** adlanan birinci fəsli iki yarımfəsildən ibarətdir. I fəslin **"Sənədli-bioqrafik nəsrin təşəkkül tarixinə baxış"** adlı birinci bölməsində nəsrin qədim və əsas janrlarından olan bioqrafiyanın ilkin örnəklərinin antik dövrdən qələmə alındığı, öncə hökmdarların, sonra xristian dinini təmsil edən müqəddəslərin həyatı və mübarizəsindən bəhs etdiyi barədə məlumat verilir. Məhəmməd peyğəmbərin (s.ə.s.) və imamların həyatına dair yazılan "Tarixi-ənbiya" formasında olan əsərlərdə onun bioqrafiyası ilə yanaşı, islam tarixi də əksini tapmışdır. Burada tərcümeyi-hal başlıca və aparıcı motiv olaraq qalmış, o, müxtəlif sahələrin təmsilçilərinin həyatını əks etdirməyə başlamış, bioqrafik əsərlərə maraq daha da artmışdır. Ədəbiyyatımızda sənədli-bioqrafik nəsrin ilk nümunəsi Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" (1156), türk ədəbiyyatında Moğol imperiyasının banisi Zəhirəddin Məhəmməd Baburun (1483-1530) "Baburnamə" əsəri hesab edilir. Tədqiqatçı Mahmut Çetin yazır: "Tərcümeyi-hal, İslam millətlərinin, həmçinin Osmanlının da, Qərbdən almadığı, öz doğma malı olan bir elm sahəsidir"[1].

Ədəbiyyatımızda Qətran Təbrizi divan və qəsidələrində, Nizami Gəncəvi "Leyli və Məcnun" (1188) poemasında Məhəmməd Füzuli farca divanındakı qəsidədə, Abbasqulu Ağa Bakıxanov isə farsca yazdığı "Gülüstani-İrəm" (1841) əsərinin sonunda tərcümeyi-halına dair məlumat vermiş və "Miratül-camal" adlı avtobioqrafik əsər yazmışdır.

Qərbdə bioqrafik metodun yaradıcısı fransız yazıçısı Sent Böv (1804-1869) bioqrafik əsərlərində yazıçının əsərlərilə şəxsi bioqrafiyasının adi, təsadüfi faktları arasındakı bağları aşkarlayaraq bioqrafik əsərin hansı tələblərə cavab verməli olduğunu bildirmiş, öz həyatını da əks etdirmişdir. Alman romançı, bioqrafik oçerklərilə tanınan araşdırmaçı Stefan Sveyq (1881-1942) "Dünənin dünyası" əsərində öz həyatından bəhs etmişdir. XX əsrdə fransız yazıçısı Andre Morua (1885-1967) yazıçıların bioqrafiyasını faktlar əsasında yazıb qədim bioqrafiya janrının yeni roman formasını yaratmışdır.

XIX əsr rus ədəbiyyatının ən görkəmli nümayəndəsi L.N.Tolstoy (1828-1910) "Uşaqlıq", "İlk gənclik", "Gənclik" avtobioqrafik trilogiyasında həyat

---

[1] Çetin Mahmut. Bioqrafi nedir? http://www.biyografi.net/ DetaySon.asp? HABERID=45

hekayəsini nəql edərkən diqqəti insanın daxili aləminin təqdiminə yönəltmişdir. M.Qorkinin (1868-1936) “Mənim universitetlərim”, “Uşaqlıq” avtobioqrafik romanları, K.Paustovskiyin (1892-1968) “Mənin həyatım” avtobioqrafik povesti, V.V.Nabokovun (1899-1977) “Mənim həyatım”, “Xatirə danışığı” avtobioqrafik romanları da bu qəbildəndir.

S.M.Qənizadənin “Məktubati Şeyda bəy Şirvani”, M.Şəhriyarın “Nişapurda günəş batarkən”, “Gecənin əfsanəsi”, “Qardaşım oğlu Huşəngə”, İ.Əfəndiyevin “Geriyə baxma, qoca”, “Üçatılan”, İ.Şıxlının “Cəbhə gündəlikləri”, M.C.Paşayevin “Yaşıdlarım” və s. əsərləri XX əsrin avtobioqrafik məzmun daşıyan dəyərli nümunələridir. Xalq yazıçısı Əli Vəliyev “Budağın xatirələri” adlı avtobioqrafik əsərində böyük bir tarixi dövrün mənzərəsini yaratmışdır. Xalq yazıçısı Əzizə Cəfərzadə “Eldən-elə” (1992) adlı əsərində XIX yüzilin Azərbaycan alimi və səyyahı Zeynalabdin Şirvaninin həyatından bəhs etmişdir.

Ə.Cəfərzadə avtobioqrafik səciyyəli “Rübabə Sultanım” (2001) romanında ailəsinin, S.Əhmədli “Axirət sevdası” (2003), “Yazılmayan yazı” (2010), V.Babanlı “Gizlinlər” (2005), S.Azəri “Tələbə məhbusun etirafları” (2007) əsərində öz həyat hekayələrini nəql etmişlər. Xalq yazıçısı İsa Hüseynov “Ömürdən izlər” adlı yazısınında tərcümeyi-halını yazmaq üçün ona bir ömrün azlıq etdiyini bildirmişdir.

Müstəqillik dövründə bioqrafik materiallarla zəngin çoxsaylı sənədli hekayə, povest, roman yazılmışdır. Ə.İldırımoğlu 1997-ci ildə yazdığı “Məşum alov və göz yaşları” sənədli hekayəsində diqqəti ermənilərin Şahverdi camaatına qarşı törətdikləri vəhşiliyə, onlara aid olan hər şeyə sahiblənməsinə, kəndin adını erməniləşdirib Varatan qoyduqlarına yönəltmişdir.

Akademik Rafael Hüseynov “Millətin zərrəsi”(2001) kitabında şair Mikayıl Müşfiq, xalq artisti Rübabə Muradova, məşhur rəssam Bəhruz Kəngərli, şair, dramaturq Hüseyn Cavid, muğam ifaçısı xanəndə Mirzə Bilal, ədəbiyyatşünas alim Əkrəm Cəfər, mayestro Niyazi, Həsən bəy Ağayev, Zülfü Adıgözəlov, Şövkət Ələkbərova, Alim Qasımov və başqa sənətkarların həyatından bəhs edir. Kitabda “Birgəliyin son yayı” adlı hissədən Ənvər Məmmədxanlının bacısı Arifə Məmmədxanlının etirafından məlum olur ki, M.Müşfiq 1936-cı ilin yayında “Yenə o bağ olaydı” şeirini həyat yoldaşı Dilbərə deyil, ona yazmışdır.

Tərcümeyi-hal motivləri ilə zəngin olan memuarda da müəllif keçmişi, həyat hekayəsini nəql edir. Burada hadisələr faktlardan daha çox yazıçının xatırladığı kimi verilir. Sənədli nəsrdə isə sənədlərə istinad və sistemlilik əsasdır. Memuar nümunələri içərisində görkəmli maarifçi Şövkət Tacıbəyin “Bir adamın sərgüzəştləri”, “Təhsil inspektorunun ömründən səhifələr” adlı sənədli povestlərinin, Ağarəhim Rəhimovun “Yaddaşda yaşar xatirələr” romanının əsasında insanların elmin sirlərinə bələd olaraq kamilləşməsi, tarixinə,

keçmişinə, mənəvi dəyərlərinə sahib çıxması ideyası dayanır. Xalq yazıçısı Hüseyn Abbaszadə də bioqrafiyasını və mühitini əks etdirən əsərlər, görkəmli sənətkarlarla bağlı xatirələrini qələmə alıb. O, "Dünyadan gör necə adamlar gedib", "Nurdan yoğrulmuşlar" adlı kitablarında xalq yazıçısı M.Hüseyn, professor M.Rəfili, R.Rza, Ə.Məmmədxanlı və b. haqqında xatirələrini vermişdir.

Tədqiqat üçün əhəmiyyətli olan "Mir Cəlal: həyatı, mühiti, ədəbi, elmi və pedaqoji fəaliyyəti" adlı iki cilddən ibarət kitabda zəngin ədəbi və pedaqoji irsə malik Mir Cəlal Paşayevin həyat və yaradıcılığı geniş şəkildə əksini tapmışdır. Sənədli-bioqrafik nəsrdə müxtəlif elm sahələrinin nümayəndələrinin həyatını əks etdirən əsərlər də diqqət çəkir.

Bio-biblioqrafik qaynaq hesab edilən təzkirələrdə təzkirəçinin müxtəlif müəlliflər, xüsusilə müasirləri barədə məlumat verməsi tədqiqat zamanı onlara mənbə kimi istinad etməyə əsas verir. Şahin Fazil XIX əsrin 80-ci illərində yaradılıb 43 il fəaliyyət göstərən, təqribən 100 il sonra yenidən bərpa olunan "Məcməüş-şüəra" üzvlərindən bəhs edən "Təzkireyi-Şahin" adlı klassik tərzdə hazırladığı təzkirəni 2006-cı ildə Bakıda nəşr etdirmişdir. Bu təzkirə bir poetik məclisin üzvlərinin həyatının məqamlarını, yaradıcılığını əks etdirir.

Məktublar vasitəsi ilə də zəruri bioqrafik məlumatlar əldə edilir. Onlar özündə haqqında bəhs edilən insanın həyatının müəyyən məqamlarını əks etdirdiyindən tədqiqat zamanı məktublardan da istifadə edilmişdir.

İnsan bu günündə dünənin rolu barədə düşündükcə, gələcək nəsillərə həqiqəti çatdırmaq ehtiyacı duyduqca sənədli-bioqrafik əsərlər qələmə alınacaqdır. Onlar dünənin həqiqətinə bələd olub bu günün hadisəsini təhlil etmək, doğru nəticəyə gəlmək baxımından da böyük əhəmiyyət kəsb edir.

I fəslin **"Sosial-siyasi hadisələrin sənədli-bədii inikası problemi"** adlı ikinci bölməsində ictimai həyatda baş verən sosial-siyasi hadisələrin tədqiqata cəlb etdiyimiz əsərlərdə qabarıq şəkildə əksini tapdığına diqqət yönəldilib. Bu hadisələr müəllifin gözləri qarşısında, onu əhatə edən mühitdə baş verir. O bu zaman proseslərə qoşulub xalqla birgə mübarizə aparır. Müstəqilliyin bərpası ilə ədəbiyyat hadisələri daha real, təhriflərsiz, çərçivələrdən azad şəkildə təqdim etmək imkanı qazanmışdır. SSRİ-nin süqutu, müstəqilliyin əldə olunması, Qarabağ müharibəsi bu dövrün əsas hadisələridir. Qarabağ mövzusunda yazılan S.Əhmədlinin "Axirət sevdası","Ömür urası", "Kütlə", "Kef", M.Orucun "Son dayanacaqlardan biri", K.Əfsəroğlunun "Çadır", A.Abbasın "Dolu", E.Mehrəliyevin "90-cı illər", "Tale döyüşü" əsərlərində də son dövrün sosial-siyası hadisələri, Qarabağ həqiqətləri, həmçinin sənətkarın, xalqın yaşadığı acı gerçəklər əksini tapmışdır.

Sabir Əhmədli "Axirət sevdası" əsərində dövrün xronikasını verir, SSRİ-nin süqutundan sonrakı proseslərə, dünyada və Azərbaycanda baş verən sosial-siyasi hadisələrə münasibətini bildirir. O, Qarabağ müharibəsində qəti və amansız olmağı vacib hesab edir, çeçen xalqının azadlıq mücadilə-

sində göstərdiyi qəhrəmanlığı yüksək qiymətəndirir. Əsərdə Qarabağ hadisələri geniş planda təqdim edilib, real döyüş səhnələrinin təsviri verilib. Romanın ata dərdini əbədiləşdirən əsər kimi yarandığını bildirən Vaqif Yusifli yazır: "Bu roman "Ata ağrısı" da adlana bilərdi. İlk dəfə idi Azərbaycan bədii nəsrində Yazıçı-Atanın oğul itkisindən doğan dağ boyda dərdi ilə üzləşirdik"[1]. Ona axirəti sevdirən, bu əsəri yazdıran səbəb övlad məhəbbətidir. Onu sarsıdan müharibənin xalqına, ailəsinə gətirdiyi faciədir. Bu mövzuya müraciət digər yazıçıların yaradıcılığında da əksini tapıb, lakin S.Əhmədlinin yurd və oğul itkisindən doğan fəryadı daha təsirlidir. 1970-ci ilin fevral ayının 12-də anadan olan Məhəmməd 1994-cü ildə məhz doğum günündə şəhid olmuşdu və bu acı gercəklə barışmaq onun üçün çox ağır idi. Onun tərcümeyi-halının ən ağır, qanla, göz yaşı ilə yazılan səhifələri sosial-siyasi hadisələrlə bağlıdır. "Kef" əsərində isə yazıçı doxsanıncı illərin ziyalı mühitini, məişət çətinliklərini təfərrüatı ilə qələmə alıb. Əsərdə xalqın ağır güzəranı da əksini tapıb. Onun "Kütlə" romanı xalqın həyatında baş verən ictimai-siyasi hadisələri əks etdirir. Qarabağ hadisələrinə görə meydanda birlik nümayiş etdirən xalq torpağına edilən təcavüzə qarşı etirazını bildirir, müqəddəratını özü həll etmək istəyir. O, Sumqayıt hadisələrinə düzgün qiymət verilməsini, azadlığını tələb edir. Nəticədə, meydan hərəkatı genişlənir, xalq səriştəsiz məmurların, Ə.Vəzirovun istefasını, Dağlıq Qarabağa verilən muxtariyyətin ləğv olunmasını tələb edir və azadlığını qanı ilə qazanır.

Müstəqillik uğrunda mübarizə, Qarabağ müharibəsi son 25 ildə yazılan sənədli-bioqrafik nəsrdə də geniş şəkildə əksini tapmışdır. M.Orucun "Son dayanacaqlardan biri" sənədli povestinin əsasında da dövrün sosial-siyasi hadisələri durur. Şuşa, Laçın, Füzulinin işğalının acısı, əkin-biçinlə əsasını qoyduğu təsərrüfatın Beyləqanla Füzulinin sərhədində yerləşdiyindən şahidi olduqları ümidlərini puç edir, vətən övladının itkisinin ağrısını yaşayır. Müəllif hələ ömrünü yaşamamış, arzularını reallaşdırmamış insanın həyatının sona çatmasından sarsılır. Çünki o insan xalqının övladı, gələcəyi, ümidi, həyatın bir parçasıdır.

Bəxtiyar Vahabzadə "Şənbə gecəsinə gedən yol" adlı kitabını Qarabağ hadisələrinin mahiyyətini dərinliyi ilə bildirmək, gələcək nəsillərə ibrət dərsi kimi qoymaq naminə qələmə almışdır. Sovet ordusunun Bakıda faciələr törətdiyi şənbə gecəsinin səhəri Prezident Aparatı binasının qarşısında mitinqdə çıxış edən şair partiya biletindən imtina etmiş, telestudiyaya gəlmiş, radio vasitəsilə deputatlara müraciət edib sessiya çağırmış, mübariz mövqeyini bildirmişdir.

Xalq yazıçısı Elçin "İstiqlalımız uğrunda" adlı müsahibəsində son 4 ildə Azərbaycandakı siyasi duruma dair dəfələrlə müsahibə verib yüzdən çox

---

[1] Yusifli Vaqif . Sabir Əhmədli – Yaşayan sənətkar http://www.kaspi.az/ news.php?id=10755

konfrans keçirdiyini, müxtəlif dövlət xadimləri və siyasi dairələrlə görüşlərdə həqiqətləri söylədiyini bildirir: "ABŞ-ın görkəmli siyasi xadimi, Demokratlar partiyasının liderlərindən biri, konqresmen Cim Mudini köməkçiləri ilə birlikdə Bakıya dəvət etməyə nail olduq və həmin səfər ilk dəfə olaraq Şəhidlər Xiyabanının ziyarəti ilə başladı, onu döyüşən Qarabağa apardıq. Hər şeyi öz gözləri ilə gördü. Cin Mudinin Azərbaycan səfəri dünya ictimaiyyətində obyektiv təsəvvür yaratmaq baxımından uğurlu addımlardan biri idi" [1].

Ədəbi fəaliyyətə tələbəlik illərindən başlayan S.Azəri "Tələbə məhbusun etirafları" adlı bioqrafik-sənədli romanında XX əsrin II yarısından başlayaraq mürəkkəb və ziddiyyətli dövrün xarakteristikasını verir, həyatının fonunda yarım əsrlik tarixi hadisələri təsvir və təhlil edir. 1956-cı ildə univeristetin Filologiya fakültəsinin Jurnalistika bölməsində təhsil alarkən SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Kliment Voroşilova göndərdiyi məktuba görə hərbi komissarlıq adı ilə Dövlət Təhlükəsizlik Komitəsinə gətirilib dindirilən, yazılı izahat alındıqdan sonra həbs edilən S.Azərinin həyatında çətin sınaq illəri başlayır. Həbsxanada baş verənləri analiz edib bu qənaətə gəlir: "Sovet imperiyasının anatomiyasını mən indi-indi başa düşürdüm. Başa düşürdüm ki, bir kommunist liderdən başqa kommunist liderə, yəni Xruşovdan və Mikoyandan Voraşilova şikayət etmək, üstəlik də onların cəzalandırılacağını ummaq ən azı sadəlövhlük imiş! Çünki xalqda deyildiyi kimi, onların hamısı bir bezin qıraqları imişlər... Hələ o vaxtdan, lap cavan yaşlarımdan anladım ki, belə bir cəmiyyət əvvəl-axır məhvə məhkumdur. Kütləvi haqsızlıq, ədalətsizlik, qırğınlar − qan üstündə qurulan sistem uzun müddət yaşaya bilməz" [2].

Əsərdə Sabir Azərinin həyatını, tarixi gerçəklikləri, düşüncələrini paylaşarkən həyat həqiqətinə sədaqəti və cəsarəti diqqəti cəlb edir. O, insanın özünə, yəni qüruruna, ləyaqətinə, haqqa xəyanət etməməsini xoşbəxtlik hesab edir, həyatını bu istiqamətdə qurur. Yazıçı məhbus həyatında "insan ən böyük mücadiləni məhz özü ilə aparmalıdır", – qənaətinə gəlir. Haqsızlıqlara qarşı etirazını bildirmək, ədalət naminə mübarizə aparmaq, vicdanı qarşısında hesabat vermək, səhvlərindən nəticə çıxarmaq, etiraf etməyi bacarmaq onun əsas xüsusiyyətləridir. O, sosial-siyasi hadisələrə münasibət bildirir, yarım əsrlik tarixi qorumağa çalışır, məsələlərə xarakterindən irəli gələn həqiqətə sədaqət prinsipi ilə yanaşır, vətəndaşlıq borcunu yerinə yetirir.

Söylənilənlərdən belə nəticəyə gəlirik ki, son 25 ilin sənədli-bioqrafik nəsri xalqın və sənətkarın həyatı, mənəvi dünyası, ölkədə baş verən ictimai-siyasi hadisələr, bu hadisələrin onlara təsirini əks etdirən əsərlərlə zəngindir.

**"Sənədli-bioqrafik nəsrdə tarixilik və müasirlik"** adlı II fəslin

[1] Elçin. Müsahibələr: Seçilmiş əsərləri, 10 cilddə, X c., Bakı: Çinar-çap, 2005, s.112
[2] Azəri Sabir. Tələbə məhbusun etirafları, Bakı: Çaşıoğlu, 2007, s. 38.

“Tarixə sənətkar baxışı” adlı I bölməsində sənədli-bioqrafik əsərlərin tarixilik, sənədlilik prinsipi əsas götürülüb konkret faktlar əsasında yazıldığı, müəyyən dövrün ictimai-siyasi mənzərəsinin yaradıldığı, ölkədəki proseslərin analitik şərhi, bəhs edilən dövrün reallıqlarının təqdimi, həmin dövrün tədqiqi, tarixinin öyrənilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyi vurğulanır.

Tarixi proseslər insanların həyatında əsas yer tutur. Bu əsərlərdə bugünün problemlərinə də keçmişə, tarixə nəzər salınaraq münasibət bildirilir. Ona müraciət həm də sovet rejiminin təzyiqlərinə məruz qalmış xalqımızın yaddaşının bərpası baxımından zəruridir. Qeyd edək ki, xalq yazıçısı Əzizə Cəfərzadənin Azərbaycan tarixi romanının inkişafında mühüm xidmətləri olmuşdur. “Gülüstandan öncə”, “Eldən elə”, “Bir səsin faciəsi”, “Zərrintac-Tahirə”, “İşığa doğru”, “Rübabə Sultanım”, “Xəzərin göz yaşları”, “Eşq sultanı” romanlarında, o, Azərbaycan tarixinin çox az müraciət olunan hadisə və olaylarını mümkün qədər dəqiq təsvir etmiş, tanınmış şəxsiyyətlərlə yanaşı, diqqətdən kənarda qalan şəxsiyyətlərin də həyatından bəhs etmişdir.

Müstəqillik dövründə qələmə alınan və Qumral Sadıqzadənin (1929-2010) atası Seyid Hüseynin həyatından bəhs edən “Son mənzili Xəzər oldu” tarixi-publisistik, qardaşı Cığatayın ömür yolundan bəhs edən “Mənim nakam qardaşım” sənədli romanlarında da bioqrafikliklə yanaşı, tarixi hadisələr əksini tapıb. İki hissə və epiloqdan ibarət olan “Son mənzili Xəzər oldu” əsərinin birinci hissəsi nəslin tarixindən başlayıb S.Hüseynin həyatının 1920-ci ilə − Azərbaycanda Sovet hakimiyyəti qurulana qədərki dövrünü, ikinci hissəsi isə ömrünün son 17 ilində baş verən hadisələri əks etdirir. Övladları S.Hüseynin 1938-ci ildə Qum adasında güllələndiyini 40 il sonra öyrənə bilir. Əsər ədibin bioqrafiyasının bizə məlum olmayan məqamları haqqında müfəssəl və dəqiq məlumat verir. Onun 2002-ci ildə nəşr etdirdiyi “Mənim nakam qardaşım” əsəri də tərcümeyi-hal motivləri ilə zəngindir. Hər iki əsərdə hadisələr xronoloji ardıcıllıqla verilmiş, müəllif yaşananları təsirli şəkildə təqdim etmişdir.

Vətənpərvər xalq yazıçısı Ə.Cəfərzadənin həyatı xalqın milli yaddaşının bərpası naminə yaşanmış ömürdür. O, yaradıcılığında tarixi sevərək qoruyur. Tarixi janrda yazdığı sonuncu romanı olan “Eşq sultanı” (2003) sənətkarın yarım əsrdən artıq apardığı tədqiqatların nəticəsidir. Müəllif M.Füzulinin ömrünün mərhələlərinə nəzər salır, mənəvi aləmini təqdim edir, dünyanın eşq sultanına sevgi və ehtiramını bildirir. Kitaba “Yazıçının son romanı” adlı ön söz yazan professor Vaqif Sultanlı Ə.Cəfərzadənin yaradıcı ömrün ucalığında Füzuli sehrinə düşməsini təbii hesab edir, qeyd edir ki, yazıçının Füzulinin Şirvandan köçüb getməsi, Şamaxının Bayat kəndindən olması versiyasını əsas götürməsi təsadüfi deyil. Məhz buna görə romanda Füzulinin obrazı və şəxsiyyəti vətən həsrəti, qürbət duyğuları ilə qovuşuq şəkildə ifadəsini tapmışdır. “Eşq sultanı” romanında Əzizə xanımın yaradıcılıq üslubuna sadiq qalıb bəhs etdiyi dövrün panoramı, xalqın etnoqrafiyası, həyat tərzi, etiqad və inamı

barədə dəqiqliklə məlumat verməsi təsvir olunan mühiti dərk etməyə imkan yaradır. O, ziyalıların, dövlət və elm-sənət adamlarının həyatı, fəaliyyəti ilə yanaşı, öz həyatına da mövzu kimi baxmışdır. Bu tarixin ən dəqiq bilicisi yazıçının özü və ailəsidir. Əzizə Cəfərzadənin "Rübabə Sultanım", böyük qardaşı, f.e.d. Məmməd Cəfərzadənin "Biz Cəfərzadələr" bioqrafik yazısı, kiçik qardaşı f.e.d. Əhməd Cəfərzadənin "Eşitdikərimdən, gördüklərimdən yadımda qalanlar" bu qəbildəndir. Yazıçının Tarixə istinadı daha çox bu səbəblərlə bağlıdır: 1)Tarix özündə dünənin həqiqətini əks etdirir; 2)Keçmişin, soykökün, milli yaddaşın mühafizəçisi kimi dəyərləndirilir; 3)Mövcud problemlərin həlli ona bələd olmağı tələb edir.

Dünənini incələyərək bugünün suallarına cavab axtaran sənətkar tarixinə sahib çıxır. Çünki bu yalnız onun keçmişi deyil, xalqın tarixidir. Konkret faktlar sübut edir ki, qadağalara baxmayaraq xalq sevdiklərini, qanı, canı bir olan qardaşlarını unutmayıb. Şair və yazıçılar dilin təəssübünü çəkməklə yanaşı, məhv edilmək təhlükəsini gözə alaraq soykökə bağlılığı, Türkiyəyə məhəbbətlərini bildirmiş, türklərdən məqsədyönlü şəkildə uzaqlaşdırıldıqlarını söyləmişlər. Ə.Cəfərzadə, S.Azəri, B.Vahabzadənin əsərləri bu qəbildəndir.

Ə.Cəfərzadə "Rübabə Sultanım" adlı bioqrafik romanını müstəqillik dövründə qələmə almışdır. Burada millilik, soykökə bağlılıq məsələləri, xalqın həyatı, düşüncəsi, köklü problemləri əks olunub. Yazıçı XIX –XX əsrlərdə Azərbaycanda baş verən mühüm ictimai-siyasi hadisələri bir nəslin tarixi, həyatı fonunda təqdim edib. Əsərdə türklərə, türk ədəbiyyatına böyük rəğbət duyulur, keçmiş unudulmur. A.Rəhimovun "Yaddaşda yaşar xatirələr" əsərində silahların babasının yadigarı olduğunu təsadüf nəticəsində öyrənən müəllif öyrəndiklərini atasının ciddi xəbərdarlığı ilə gizlədir. Əks təqdirdə, hökumətə xəbər veriləcək, atası tutulacaq, ailə incidiləcək, silahlar müsadirə olunacaq, nəticədə, onun keçmişi, həyatı məhv olacaqdı. Həmin dövr məqsədyönlü şəkildə keçmişi hafizədən silməyə köklənmişdi ki, insana tarixini unutdursun, onu istədiyi formaya salıb idarə etsin. Lakin qadağalara baxmayaraq keçmiş xatırlanırdı. "Rübabə Sultanım" romanında Əzimənin Böyükxanım ananın oxuduğu Fincan haqqında mahnını, "Qərənfil" mahnısını, "Adalar" türküsünü unutmaması qadağaların qəlblərə hökm edə bilmədiyinin sübutudur. "Adalar" türküsündə adalardan adalara yollar aranması ayrı salınmış iki qardaş xalqın taleyi ilə səsləşir. Əsərdə Dəmir pərdənin onu türk qardaşlarından ayırdığı da əksini tapmışdır.

Ə.Cəfərzadənin yaradıcılığını xalqa, soy kökə, milli adət-ənənələrə bağlılığı kimi də dəyərləndirmək olar. O, əsərlərində tarixi müasirlik qədər yaşada bilib. Ümumiyyətlə, sənədli-bioqrafik nəsrdə tarixə, milli-mənəvi dəyərlərə, soykökə bağlılıq ideyası əsas götürülmüşdür. Yazıçı keçmişdən danışarkən dünəni, bu gündən danışarkən isə hazırki ictimai-siyasi, sosial, ədəbi hadisələri gündəmə gətirməklə artıq sabah üçün keçmiş sayılacaq bu gününün

tarixini yaradır. Araz da xalqın tarixidir. Haqqında yazılanlar, söylənilənlər onu obraz kimi göz qarşısında canlandırır. Ə.Cəfərzadənin "Rübabə Sultanım" əsərində, o, xalqın həsrətinin, kədərinin adı, ünvanı kimi təqdim olunur.

Dövlətçilik məfkurəsini, vətəndaşlıq ləyaqətini uca tutan şəxsiyyətlərin ömrü yalnız onların həyat tarixçəsi deyil, həm də xalqın tarixidir. Müdafiə Nazirliyinin Hərbi-Elmi Tədqiqatlar İdarəsinin baş zabiti, yazıçı Şəmistan Nəzirlinin "Cümhuriyyət generalları" kitabında Azərbaycan Demokratik hökumətinin sərkərdələri haqqında sənədli hekayə və oçerklərdə əsrin hərb tarixinin səhifələri, ilk admiral İbrahim bəy Aslanbəyovun və general Daniyal bəy İlisulunun həyatına nəzər salınır. Q.İlkin 1918-20-ci illərdə böyük xidmətləri olmuş və indiyədək unudulmuş hərbi xadimlərimizin ömür yolunun araşdırılıb ilk dəfə oxuculara çatdırmasını Ş.Nəzirlinin yeni kitabının ən gözəl məziyyəti hesab edir. Fəaliyyətinin düşmənlə üz-üzə vuruşan döyüşçülərimizin qəhrəmanlığından əskik olmadığının sübutu kimi bir faktı göstərməyin kifayət olduğunu bildirir. O, Sevastopol şəhərində muzey bələdçisindən Aslambeqov kimi qələmə verilən Aslanbəyovun adını eşidib axtarışa başlayır. Arxivdə işləyən yaşlı erməni qadın Aslanbəyovun şəxsi işini ona göstərmək istəməsə də, Şəmistan bunu tələb edir, sənədi alıb oxuyarkən edilən düzəliş diqqətini cəlb edir: Admiral İbrahim bəy Aslanbəyov Allahverdi oğlu. Dini "müsəlman". Sonralar qara mürəkkəblə bu ad və soy adın üstünə qələm çəkilib Aslanbəyov Avramiy Boqdanoviç, müsəlman dini sözü üzərində "Pravoslavnıy" yazıldığını görür, bu saxtakarlığı ifşa edir.

Aydın Tağıyevin "Adı ünvanına qayıtdı" sənədli hekayəsi Məmmədağa Nəzirovun faşistlərin Medvin kəndindəki mövqelərini top atəşinə tutması, yoldaşlarının mühasirəni yarıb çıxmalarına şərait yaratması, ağır və təkbətək döyüşdə fərqlənib, komandanlıq tərəfindən təşəkkür alanlardan olması barədədir.

Əli İldırımoğlunun 1992-1997-ci illərdə yazdığı sənədli hekayə və oçerklərində Qarabağ və son dövr hadisələrindən bəhs edilir. "Erməni xisləti", "Ayılmadıqca aldanırıq", "Bütöv adam", "Yarpaqlar saralanda", "Məşum alov və göz yaşları" əsərləri özündə yaxın keçmişlə yanaşı, müasir Azərbaycanın həqiqətlərini əks etdirir. "Ayılmadıqca aldanırıq" adlı sənədli hekayəsində sovet dönəmində ermənilərin məsul vəzifələrdə çalışıb hər şeyi millətinin xeyrinə həll etmələri, son dövrdə baş verən proseslər, 20 Yanvar faciəsi, Qarabağ hadisələri və münaqişənin dondurulma səbəbləri barədə tutarlı dəlillər gətirilərək söhbət açılır. Göründüyü kimi, hərb tarixi də sənədli-bioqrafik nəsrdə diqqətdən kənarda qalmamış, tarixə nəzər salan yazıçılar onu mühafizə etməyə nail olmuşlar.

A.Rəhimovun "Yaddaşda yaşar xatirələr" əsərində yazıçının həyatı da müəyyən tarixi hadisələrin əks olunduğu dönəmi, xalqın düşmənə qarşı iki dəfə apardığı müharibə zamanı baş verən hadisələri əhatə edir: II dünya müharibəsi və Qarabağ müharibəsi. Xalqın həyatında qanla yazılan 20 Yanvar hadisələri

də sənədli-bioqrafik nəsrdə əksini tapıb. S.Əhmədlinin "Qərənfil qan içində" hekayəsində o ağır illərin panoramı yaradılıb.Yazıçının "Şəhidlər Xiyabanı", "Qara bayraqlar", "Atılmış biletlər" hekayələri də özündə xalqımızın həmin günlərdə yaşadığı tarixi həqiqəti əks etdirir. "Atılmış biletlər" hekayəsində qanında boğulan xalqın Kommunist partiyasına etimadını itirib partbiletlərini cırıb atması, yandırması da ötən əsrin sonlarının hadisələridir.

Elçin Mehrəliyevin separatçı erməni quldurlarının 20 noyabr 1991-ci ildə törətdikləri terror nəticəsində həlak olmuş dövlət xadimi, müstəqil Azərbaycan Respublikasının ilk Daxili İşlər naziri general-mayor Məhəmməd Nəbi oğlu Əsədovun həyatından bəhs edən "Tale döyüşü" romanında müəllif təhkiyəsindən onun da qəhrəmanı kimi vətənə sevgisi, xalqın taleyindən nigaran olması aydın şəkildə duyulur. Əsər M.Əsədovun Aslan müəllimdən eşitdiyi tarixi faktlarla da diqqəti cəlb edir. O tarixə, konkret faktlara istinad edib İrəvanın, Qarabağın azərbaycanlıların ata-baba torpaqları olduğunu, ermənilərin hər zaman bərəkətli torpaqlarımıza göz dikdiyini, Azərbaycanla bərabər, Gürcüstan ərazilərinə də iddia etdiklərini bildirir: "1923-cü ildə, qərbi Azərbaycan əraziləri hesabına yaradılan "Ermənistan"da – öz tarixi vətənlərində yaşayan 580 min azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Dağlıq Qarabağdakı bir ovuc erməniyə muxtariyyət verildiyini, eyni zamanda səkkiz oyamağın Azərbaycandan alınıb Ermənistana qatıldığını, həmin yerlərin türkcə adının dəyişdirilib ermənicə qondarıldığını izah etməyi də unutmadı"[1]. Aslan müəllim faktlara əsaslandığını, sovetlər gələndə hər yerdən yığışdırılan sənədlərin ona babasından qaldığını bildirir. Atası sənədləri Aslana verəndə deyir ki, əgər ermənilər gəlib haradasa kilsə tikirlərsə, deməli, həmin yeri tərk etmək niyyətində deyillər. Əksinə, ətraf ərazilərə də yiyələnmək iddiasına düşəcəklər. Hadisələrin sonrakı gedişatı onun söylədiklərində haqlı olduğunu sübut edir.

Ədəbiyyatşünas Yaşar Qarayev son bir əsrdə Bakıya qarşı edilən bütün qəsdlərdə erməni ekstremizminin irtica ünsürləri kimi iştirak etdiyini bildirib. Yaxın keçmişə nəzər saldıqda bunu tarixi faktlar əsasında, müəyyən zaman fasilələrilə − 1905, 1918, 1938, 1949, 1957, 1988-ci illərdə qabarıq şəkildə görmək olur. Yaşar Qarayev yazır: "Şuşanı, Qarabağı özünə "vətən" hesab edən vətənsiz ermənilər bilməlidirlər ki, 1917-ci ildə Qarabağ ordusu yox, daşnak silahlı bandası olub. Üstəlik 1918-ci ilədək dünyanın siyasi xəritəsində Ermənistan adlı dövlət də olmayıb"[2].

Bunlar əhəmiyyətli faktlardır və yazıçılar həyat hekayələrini qələmə alarkən tarixi hadisələri də gündəmdə saxlamağı bacarmalıdırlar.

II fəslin **"İdeya aktuallığı və müasirlik"** adlı ikinci bölməsində tədqiqata cəlb etdiyimiz əsərlərin ideyası, müstəqil dövlət quruculuğu prose-

---

[1] Mehrəliyev Elçin. General Məhəmməd Əsədov, Bakı: Elm və təhsil, 2011, s.25

[2] Qarayev Yaşar. Azərbaycan Cümhuriyyəti, "Azərbaycan" jurnalı, 1990, №11, s.168-174

sində milli özünüdərk axtarışları, soykökə qayıdış və millilik məsələlərinin aktual məsələ kimi gündəmə gətirilib dəyərləndirilməsindən bəhs edilir. Müstəqillik dövründə qələmə alınan əsərlər bir tərəfdən insanların həyat yolunu, digər tərəfdən isə azadlıq əldə etmiş xalqın milli özünüdərk prosesini əks etdirir. Xalq kommunist ideologiyasının təsirindən qurtulmuş, Ateizm buxovlarından azad olmuş, keçmişinə, milli-mənəvi dəyərlərinə üz tutmuş, tarixininə, ədəbiyyatına sahib çıxmış, dini şüur yeni inkişaf müstəvisinə keçmiş, nəticədə, dinlə ideologiyanın yeni münasibətləri formalaşmışdır. Bunda ədəbiyyatın da böyük rolu olmuşdur. Keçmiş tədqiqata cəlb etdiyimiz əsərlərin nüvəsini təşkil edir. Xalq yazıçısı Elçin "Ədəbiyyatda tarix problemi və müasirlik" adlı məqaləsində deyir: "Müasirlik – elə bir estetik kateqoriyadır ki, illər keçdikcə də öz əhəmiyyətini, aktuallığını itirmir; tarixi məzmuna malik elə bir ideya-bədii keyfiyyətdir ki, dünən olduğu kimi, bu gün də bizim hisslərimizə toxunur, şüurumuza təsir edir, bizi düşündürür"[1].

Müasirlik zamanı, mühiti, hazırkı mühitin yetişdirdiyi insanı anlamaq, həyatın nəbzini tutmaq, bir qədər də zamanı qabaqlamaqdır. Müəllif müasirlərindən bir addım irəlidə olmalıdır ki, onları yazdıqlarına inandırsın, yeni fikir aşılasın. Müasirlik milliliyi qorumaqla şərtlənməlidir. Çünki hər şey kökdən başlayır. Millilik özündə xalqın spesifik xüsusiyyətlərini, düşüncə tərzini əks etdirir. O əsər gündəmdə qalır ki, zaman keçsə də, bütün dövrlərin oxucusu onda suallarının cavabını və ya yeni nə isə tapır. Anar, Elçin, S.Azəri, S.Əhmədli, Ə.Cəfərzadə, V.Babanlı və digər sənətkarların yaradıcılığı bu qəbildəndir.

Müstəqil dövlət quruculuğu prosesində milli özünüdərk axtarışları, soykökə qayıdış, mənəvi dəyərlərimizə sahib çıxma əsas məsələ kimi gündəmə gətirilib, xüsusilə tarixi mövzuda yazılan əsərlərdə, sənədli-bioqrafik nəsrdə əksini tapıb. Yazıçılar müstəqillik əldə etmiş xalqın milli özünüdərk prosesini onun tarixinə, məişətinə nəzər salaraq əks etdirmək məsuliyyətini üzərlərinə götürmüşlər. Bu, xalqın siyasi, iqtisadi azadlığını təmin etmək istiqamətindəki fəaliyyəti – müstəqil dövlət və təsərrüfat quruculuğu, tarixinə, ədəbiyyatına, mədəni-mənəvi dəyərlərinə sahib çıxaraq onların kommunist ideologiyasının təsirlərindən azad edilib milli məfkurəyə əsaslanması ilə nəticələnmişdir.

Tədqiqata cəlb etdiyimiz əsərlərdə müəllif həyat hekayəsini yazmağa ehtiyac duyduğundan əsas materialı real həyat hadisələridir. Bu fakt mövzunun aktuallığını təmin edir. Müasirlik dedikdə, yalnız hazırkı hadisələri əks etdirmək nəzərdə tutulmur. Əsas məsələ bu dövrdə yaşayan insanın həyata, dünyaya münasibətindəki yeni baxış bucağına diqqət yönəltməkdir. Ədəbiyyat zamanı qabaqlayıbsa, müəllif bütün zamanlarda bəşəri narahat edən məsələlərə toxunubsa, deməli, yaranan ədəbi nümunələr ötən əsrlərin məhsulu olsa da,

---

[1] Elçin. Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesinin problemləri, Bakı: Çinar-çap, 2003, s.52.

müasir səslənəcək. Professor Vaqif Sultanlı bioqrafik əsərlər müəllifi, xalq yazıçısı Ə.Cəfərzadə yaradıçılığı haqqında yazır: "Əzizə Cəfərzadənin tarixi romanlarını səciyyələndirən ən mühüm cəhətlərdən biri onların ideyaca müasirliyi, bu günün problemləri ilə bağlı olmasıdır[1]. Əsərin uğur qazanmasını təmin edən əsas məsələlərdən biri və ən başlıcası ideya aktuallığı, günün tələbləri ilə yaxından səsləşməsidir. Bunu sənədli-bioqrafik nəsini tədqiq etdiyimiz sənətkarların yaradıcılığında aydın şəkildə görürük.

XX əsrin 60-cı illərindən ədəbiyyata novatorcasına yanaşan yeni nəsil sadə insan həyatını diqqət mərkəzinə gətirib, onu bədii sözün predmetinə çevirməyə üstünlük verməklə nəsrimizə ədəbi-estetiк кateqoriyalar baxımından təzə ab-hava, yeni ruh və ideya gətirmişdir. Mənəviyyat məsələsi, insan münasibətləri və insani münasibətlərin tədqiqi sahəsində İ.Əfəndiyev, B.Vahabzadə, İ.Şıxlı, İ.Muğanna, S.Əhmədli, S.Səxavət, V.Babanlı, Anar, Elçin, V.Sultanlı, S.Azəri, M.Süleymanlı, E.Hüseynbəyli və b. sənətkarların yaradıcılığında güclü axtarışlar aparılmışdır. Xüsusilə, S.Əhmədli, Anar, Elçin, S.Azəri, S.Səxavət, V.Babanlı nəsrində mənəvi-etik problemlərin bədii təcəssümü geniş şəkildə əksini tapmışdır. Akademik Rafael Hüseynov "Əbədi Cavid" kitabını zəngin arxiv materialları, Hüseyn Cavidi yaxından tanıyan insanların xatirələri, şairin irsinin, o cümlədən, xilas olmuş əlyazmalarının dərindən araşdırılması və təhlili əsasında hazırlayıb. İstifadə etdiyi arxiv sənədlərinin surətini təqdim etməsi sənədliliyin əyani sübutudur. Əsəri yazmağa hazırlaşarkən H.Cavidin qızı Turan Caviddən ata, ana və qardaşının əlyazmalarını, məktublarını istəyərkən onu incidəcəyinin fərqinə varır, onun olanları unutmadığını vurğulayır: "O, heç nəyi unutmayıb, unuda bilməz... Ömrünün son qırx ilini, o qırx iləcən olan günlərin ən adi anlarını belə yaddaşında saxlamaq, qorumaq üçün yaşayıb" [2]. Ən həssas məqamlarda, hətta kövrəldiyi anlarda belə Turan xanımın özünü ələ alması onu heyran edir. Bu əsərlər özündə keçmişi, dünəni yaşadan, sabahın suallarını cavablandırmaqda olan müasir ideyalı əsərlərdir. Onlar reallığı əks etdirməsi, özündə həqiqəti yaşatdığı səbəbindən də aktualdır. Tədqiq etdiyimiz sənədli-bioqrafik əsərlərin təhlilindən bu qənaətə gəlirik ki, onlar özündə tarixiliyi və müasirliyi təzahür etdirmək baxımından uğurlu sənət inciləridir. Bu əsərlərdə bəhs edilən məsələlər dövrümüzdə aktual səsləndiyi kimi, gələcəkdə də ideyası baxımından müasir səslənməyi bacaracaqdır.

Dissertasiyanın üçüncü fəsli **"Sənədli-bioqrafik nəsrin janr özəllikləri"** adlanır. **"Janr tipologiyası və üslub problemi"** adlı birinci bölmədə sənədli-bioqrafik nəsrdə mövzu, ideya, dil-üslub xüsusiyyətləri, müəllif təhkiyəsinin fərqliliyi, yazı manerası, həyat hekayəsinin müxtəlif janrların qəlibinə uyğun şəkidə təqdiminə və sənətkarlıq məsələlərinə diqqət yönəl-

[1] Müasir Azərbaycan ədəbiyyatı. Dərslik, 2 cilddə, II c., Bakı: Bakı Universiteti, 2007, s.88
[2] Hüseynov Rafael. Əbədi Cavid, Bakı:Nurlan, 2007, s.97

dilmişdir. Şərq ədəbiyyatının ilkin qaynaqlardan olan, tərcümeyi-hala dair müəyyən bir faktın təsdiqi üçün əsrlər boyu istinad edilən təzkirələr mövzumuza dair zəruri məlumatların verildiyi mənbələrdən olmuş, Azərbaycan və türk ədəbiyyatında şairlər haqqında təzkirələr daha çox yayılmışdır.

Sənədli-bioqrafik nəsrdə həyatına nəzər salınan şəxsin portreti, dövrün panoramı, xalqın həyatı, məişətinin mənzərəsi yaradılır. Anarın "Sissiz" və "Mübarizə bu gün də var" əsərləri müəyyən mənada bir-birini xatırladıb davam etdirsə də, məsələyə yanaşma tərzi, janr və üslub fərqliliyi diqqət çəkir. Bioqrafik məqamlarla zəngin olan "Sissiz" xatirədir. "Mübarizə bu gün də var" əsərinin janrını düşüncə − esse kimi göstərən Anar N.Hikmətin həyatından bəhs edən "Kərəm kimi" əsərinin də janrını xatirə, esse kimi göstərir.

Hazırda da bioqrafik, sənədli, səyahət, roman-esse, roman-oçerk, roman-xatirə janrlarında əsərlər yazılır. Povest və romanla müqayisədə çox kiçik həcmə malik sənədli hekayələr də tədqiqat üçün əhəmiyyətlidir. Şəmistan Nəzirlinin Səməd Vurğun haqqında "Beş günlük qonaq", İsfəndiyar Vahabzadənin "Baş leytenant", Aydın Tağıyevin "Adı ünvanına qayıtdı", Zivər Hüseynovanın "Necə unudum səni", Məmməd Orucun "Aman təklik əlindən", Asif Əliyevin "Onun ayağı sayalı oldu" kimi sənədli hekayələri bu qəbildəndir.

Yazıçılar bəzən həyat hekayələrinə təkrarən boylanıb sonra baş verənləri də nəql etmiş, həyat təcrübələrindən bəhrələnib söylədikləri məsələlərə müfəssəl şəkildə qayıtmışlar. S.Azərinin "Mən DTK-nın təcridxanasında yatmışam" povesti sonrakı hadisələr də əlavə edilərək "Tələbə Məhbusun etirafları" adı ilə roman kimi nəşr olunub. A.Rəhimovun "Yaddaşda yaşar xatirələr" povesti eyni adla, roman şəklində çap edilib. S.Azərinin "Tələbə məhbusun etirafları" bioqrafik-sənədli romanı onun həyatı, gerçəkliyi, özünə verdiyi hesabat, oxucu qarşısındakı etirafıdır. On il sonra povesti romanın tələblərinə uyğun şəkildə yazması insan həyatının povestə sığmadığının sübutudur.Yazıçının fikrincə, xoşbəxtlik və mənəvi rahatlığın ən vacib şərtlərindən biri insanın ləyaqətini, yəni şəxsiyyətinin bütövlüyünü, toxunulmazlığını, azadlığını qoruyub saxlamasıdır. Onun bu ideal uğrunda necə mübarizə aparması romanın konfliktini təşkil edir.

M.Orucun "Son dayanacaqlardan biri" povesti də ideyası, bədii xüsusiyyətləri ilə diqqəti cəlb edir. Burada təhkiyə uğurlu alınıb. Müəllif dilin imkanlarından məharətlə istifadə edib. Folklor nümunələri, xüsusən, atalar sözü, məsəllərə məqamında istinad yazıçı dilinin xəlqiliyinin göstəricisidir.

Yazıçı A.Rəhimov "Yaddaşda yaşar xatirələr" adlı xatirə-romanında yalnız hadisələrin nəqli zamanı deyil, sərlövhələrin adlandırılmasında da atalar sözü və məsəllərdən istifadə emişdir.

Xalq yazıçısı Ə.Cəfərzadənin "Rübabə Sultanım" bioqrafik romanında Nənəş dayənin dilindən verilən atalar sözü və məsəllər, el deyimləri, bayatılardan xalq hikməti, parçalanmış vətənin dərdini ürəyində gəzdirənlərin

həyatı bədii, onun gündəlik söhbətlərindən isə məişət üslubunu əks etdirən xalq danışıq dili diqqəti cəlb edir. Eşq sultanı" əsəri də ideyası, dil-üslub xüsusiyyətləri ilə seçilir.

Görkəmli ədəbiyyatşünas alim, akademik Nərgiz Paşayeva yazır: "Roman janrı qədər insanın daxili ehtiyac və hissiyyatını, xarakter və səciyyəsini zəngin və çoxplanlı şəkildə təsvir edən ikinci bir janr mövcud deyildir. Bu ona görə belədir ki, roman ayrıca bir janr kimi həm də özündə, daxilində bütün digər janrların daxili təcrübəsini əridərək ümumiləşdirir"[1]. Bu sənədli-bioqrafik romanlarda açıq şəkildə təzahür olunur. Əsərlərinin mövzu və ideyası, poetizmi, rəngarəngliyi ilə ədəbiyyatımızda xüsusi yeri olan S.Azəri, S.Əhmədli, S.Səxavət nəsrində də qəhrəman real həyatdan götürülüb. Onlar istinad etdiyimiz əsərlərdə həyatının gerçəyini paylaşıb. S.Səxavət yaratdığı obrazların yarıdan çoxunun həyati obrazlar, qələmə aldığı hadisələrin böyük əksəriyyətinin öz yaşantısı, həyatının müəyyən fraqmentləri olduğunu birdirmişdir. "Qaçhaqaç" romanındakı obrazların da, demək olar ki, hamısı həyatdan götürülüb. Kompoziya, dil-üslub xüsusiyyətləri, mövzu, süjet xətti, obrazlar qalereyası, milliliyi, spesifikliyilə seçilən əsər avtobioqrafiklik baxımından da əhəmiyyət kəsb edir.

Ə.Cəfərzadə, S.Azəri, S.Əhmədli, V.Babanlı və digər sənətkarların nəsr dili xalq danışıq dilinə əsaslanır. Burada obrazlılıq, çoxçalarlılıq, aforizmlərdən intensiv şəkildə istifadə diqqəti cəlb edir. Xalq yazıçısı S.Azəri, S.Əhmədli nəsri tənqidi ruhu, Ə.Cəfərzadə, B.Vahabzadə nəsri poetizmi, obrazlılığı ilə yanaşı, milli təəsübkeşlik hissinin aydın şəkildə hiss olunması, V.Babanlı, S.Səxavət nəsri lirizmi, optimizmi, tragik məqamları da pessimizmdən uzaq, komik çalarlarla təqdimetmə məharəti, Anar, Elçin nəsri isə analitikliyi ilə diqqət cəlb edir. Onlar qüsurları söyləməkdən çəkinmir, insanı yanlış yoldan uzaqlaşmağa səsləyirlər. V.Babanlı, S.Səxavət nəsrində bu komik planda verilir. Oxucu gülüşün arxasında dayanan dərin mətləbləri tədqiq edib hadisələrin mahiyyətinə varır. Bioqrafik əsərlər yalnız təhkiyə üzərində qurulmur, insanın psixoloji aləmi, düşüncələri, mənəvi dünyası daxili monoloq və ya dialoq əsnasında təqdim edilir.

Qumral Sadıqzadənin publisistik şərhlərin üstünlük təşkil etdiyi "Son mənzili Xəzər oldu", "Mənim nakam qardaşım" sənədli romanları da ənənəvi tarixi roman üslubundadır. Əsərlərin dilinin obrazlılığı, kövrək lirizm Ə.Cəfərzadənin "Eşq sultanı" əsərinin dilini xatırladır. Lakin burada tragizm daha güclüdür. S.Əhmədlinin "Axirət sevdası" romanında daxili monoloqlar müəllif təhkiyəsi çərçivəsində yerləşdirilir, nəticədə, onun daxili aləmi işıqlandırılır, mühiti, əhatəsi təhlilə cəlb edilir. S.Səxavətin xanəndə Süleyman Abdullayevin həyat və yaradıcılığından bəhs edən "Bəhanə" əsərində müəllifin

[1] Paşayeva Nərgiz. İnsan bədii tədqiq obyekti kimi. Bakı: "XXI" Yeni Nəşrlər Evi, 2003, s.107

öz obrazı da var. Onunla müsahibələri əsasında yazdığı əsər S.Səxavətin dili, üslubu haqqında belə qənaətə gəlməyə imkan verir: o, xalq təfəkkürünə bələd olduğundan dilin imkanlarından elə məharətlə istifadə edib ki, dilimizin mükəmməlliyi, sənətkarın istedadı diqqəti cəlb edir. Müəllif nitqi obrazlı, bədii, fəlsəfi notlarla zəngindir və reallıqdan bəhs edərkən nəqletmənin özündə də yeni bir çalar yarada bilmişdir.

Ədəbi tənqidin nisbətən az müraciət olunan, lakin çox oxunan janrlarından olan essedən müasir dövrdə Anar, Elçin, Əlisa Nicat, Kamil Vəli Nərimanoğlu, Rüstəm Kamal, Azər Turan və başqa müəlliflər uğurla istifadə etmişlər. Anarın "Gecə düşüncələri", Elçinin "Ədəbi düşüncələr", Kamil Vəli Nərimanoğlunun "Mənim Füzulim" əsərləri esse janrına yeni çalar gətirmişdir.

İnsanın gündəlik həyatı nəql edilən bu əsərlərdə məişət üslubunun xüsusiyyətləri də özünü göstərir. Məişət üslubundan istifadəni ona mövzunun özü diktə edir. Mövzunun nüvəsində reallıq və avtobioqrafiya dayanır. Lakin məişətlə bağlı olub əsas materialını real həyat hadisələri təşkil etsə də, bu əsərlər müəyyən janrda yazılmış ədəbi nümunələr olduğundan burada ekspressivlik də əsas götürülür. Bu emosionallıq obrazlılıqdan, sənətkarın və ya həyat hekayəsini nəql etdiyi insanın duyğularını hansı tərzdə ifadə etməsindən asılı olaraq dəyişir. Nəsri tədqiq etdiyimizdən fonetik səviyyədə obrazlılığa nadir hallarda rast gəlirik. Əsasən, leksik və qrammatik səviyyədə obrazlılıq diqqət cəlb edir. Qrammatik səviyyədə obrazlılıq − inversiya və ellipsisdən istifadə V.Babanlı, S.Azəri, Ə.Cəfərzadə nəsrində xüsusilə diqqət çəkir. Müasirləri kimi S.Əhmədlinin, E. Mehrəliyevin sənədli-bioqrafik əsərlərinin dili də peyzaj, bədii təsvir və ifadə vasitələrilə zəngindir. Elçin Mehrəliyevin "Tale döyüşü" romanında Qarabağın əsrarəngiz təbiəti təsvir edilir. Peyzaj yalnız təsvir xarakterli deyil, qəhrəmanın həyatının parçası kimi verilir. Bütün söylənilənlər onu deməyə əsas verir ki, sənədli-bioqrafik nəsr əsərləri dilinin yüksək dərəcəli poetizmilə də diqqət çəkir.

III fəslin **"Yazıçı təxəyyülü və avtobioqrafizm"** adlı ikinci bölməsində səmimiyyət, müəllifin həyatı, insanı dəqiqliklə, həssaslıqla, bəzən də təxəyüldən bəhrələnərək orijinal şəkildə təqdimi əsas məsələlərdir. Tədqiqata cəlb etdiyimiz əsərlər iki qismə ayrılır: müəllifin tərcümeyi-halı əsasında yazılanlar və onun hansısa tanınmış simanın həyatına həsr etdiyi əsərlər. Yazıçı öz həyatına mövzu kimi baxdıqda avtobioqrafik əsər yaranır. Bu, müəllifi yaxından tanımaq baxımından etibarlı mənbə, onun ailəsi, mühiti, yaşadığı, bəhs etdiyi dövrə dair məlumat qaynağıdır. Burada əsas məsələlərdən biri müəllifin həqiqətə nə dərəcədə sadiq qaldığını araşdırmaqdır. Bioqrafik əsərlərdə görkəmli simalar, o cümlədən, yazıçı əsər qəhrəmanı kimi çıxış edir, xarakteri də açılır. Yazıçı təxəyyülə yer versə də, surətlərin əlamət və ünsürlərini müşahidələrindən müəyyən qənaətə gələrək təqdim edir.

S.Azərinin "Tələbə məhbusun etirafları", V.Babanlının "Gizlinlər",

S.Səxavətin "Qaçhaqaç" əsəri avtobioqrafizmlə zəngindir. Bu romanlarda yazıçı həyatına nəzər salır, gördüyü, eşitdiyi barədə yazır, insanları xalqa xidmətə görə qiymətləndirir. Burada müəllif təhkiyəsi əsasdır. S.Səxavət "Qaçhaqaç" romanında başına gələnləri nəql edir, uşaqlıq illərinin şıltaqlığında da səmimiyyət duyulur. Təxəyyülündən bəhrələnib bəzi məqamları arzuladığı kimi təqdim etməsi əsərin daha oxunaqlı alınmasını təmin edir.

Ə.Cəfərzadənin "Rübabə Sultanım" romanında da avtobioqrafizmlə yanaşı, təxəyyülün izləri var. Onun "Eşq sultanı" əsərində bədii təxəyyül sənədliliklə paralel verilib. "Eşq sultanı" əsərində Həbibi, Mühibbi kimi tarixi şəxsiyyətlərin də orijinal şəkildə təqdim edildiyini bildirən professor V.Sultanlı yazır: "Bu obrazların yaradılışında faktlar və sənədlərlə yazıçı təxəyyülü məharətlə qovuşmaqda və bir-birini tamamlamaqdadır"[1]. Aydın olur ki, tarixi və ədəbi şəxsiyyətlərin bioqrafiyasına, həyat yoluna nəzər salan müəllif faktlara istinad etsə də, bəzən bədii təxəyyüldən istifadə etmişdir.

E.Mehrəliyevin "Tale döyüşü" romanında isə tarixilik əsas götürülüb. Professor Yavuz Axundov "Tarixi roman və müasirlik" adlı kitabında tarixi hadisənin təqdimində yazıçı təxəyyülü məsələsinə belə münasibət bildirir: "Tarixi dövrün düzgün verilməsi üçün tarixi sənədlərdən, faktlardan istifadə etmək zəruridir. Lakin bununla bərabər, yazıçı uydurmasının, yazıçı təxəyyülünün əhəmiyyətini inkar mütləq səhv nəticələrə aparır, sənətkarı tarixi hadisələrin təsvirçisinə çevirə bilər"[2].

Müstəqillik dövründə bir çox avtobioqafik əsərlər qələmə alınıb. Avtobioqrafiya ədəbi janr kimi müəllifin həyatını təsvir etdiyi Xatirə ədəbiyyatına bənzəsə də, insanın öz həyatının əsas hadisələrini xronikal şəkildə təsvir edir, onun daxili aləmini, həyata baxışını əks etdirir. Burada sənətkarın həyatının görünməyən tərəfləri də verilir. Təsadüfi deyil ki, xalq yazıçısı V.Babanlı həyat hekayəsindən bəhs edən avtobioqrafik əsəri məhz "Gizlinlər" adlandırıb. Müəllif əsərin annotasiyasında bildirir ki, "gerçək roman" adlandırdığı "Gizlinlər" gerçək hadisələr, faktlar əsasında qələmə alınıb. Bu roman ötən əsrin 40-cı illərinin ortalarından başlayaraq 1970-ci illərin axırına qədərki dövrü əhatə edir. Romanda yaradıcı ziyalıların doğru söz demək, həqiqəti yazmaq cəhdi, düçar olduqları bəlalar, məhrumiyyətlərlə dolu həyatı önə çəkilir, ədəbi-ictimai mühitin mənzərəsi yaradılır. Tanınmış şair və yazıçıların insani keyfiyyətləri, xarakteri, fərdi cizgiləri barədə verilən məlumat vasitəsilə onlar haqqında geniş təsəvvür formalaşır. Müəllif öz həyatından da danışır, ondan mühəndis olmayacağını hiss edib təhsilini Azərbaycan Dövlət Universitetində (BDU) davam etdirməklə həyatında dönüş yaratdığı məqamlar barədə yazır. Əsərin ikinci hissəsində universitet nəzdindəki Ədəbiyyat dərnəyinə getdiyi, şair Cəfər

---

[1] Cəfərzadə Əzizə. Eşq sultanı, Bakı: Şirvannəşr, 2003, s.5
[2] Axundov Yavuz. Tarixi roman və müasirlik. Bakı: Maarif, 1998, s.17

Xəndanın fakültənin divar qəzetində çıxan iki şerini bəyənib onun gələcəyinə inandığını bildirib, klassiklərimizi dərindən öyrənməyi, müasir, qabaqcıl şairlərimizin yaradıcılığını müntəzəm izləməyi, elmin sirlərinə bələd olmasını tapşırdığı və digər hadisələr barədə məlumat verir. V.Babanlı "Riyakarlığı özümə sığışdırmamışam" yazısında əsərin avtobioqrafik xarakter daşıdığını vurğulayarkən hər şeyi açıqlamadığını da bildirmişdir. Deməli, sənətkar gizlinlərindən danışsa da, paylaşmadığı bəzi gerçəklər sirr kimi qalır. Akademik Nizami Cəfərov "Vadadi Babanlı, yaxud susmayan vicdanın səsi" məqaləsində yazıçının bu roman-avtobioqrafiyasını yalnız müəllifin deyil, onun yaşadığı dövrün tərcümeyi-halı hesab etmişdir.

Həyatı son dövr yaradıcılığının tematikasına çevrilən xalq yazıçısı Anarın "Sizsiz" xatirə-romanı R.Rza, N.Rəfibəyli, onların mühiti, ailə şəcərəsi, dostları haqda faktlarla zəngindir. "Mübarizə bu gün də var" əsərində yazıçı XXI əsrin həsrətində olan qəhrəmanının həyatını detallarına qədər verir. Burada faktolojilik, dövrün ictimai-siyasi mənzərəsinin təqdimi, müasirlərinin R.Rzaya olan münasibəti və sənətkarların xarakterinin açılması əsas götürülmüşdür. Beş yaşında atasını itirib anasına sığınan şair dayısının himayəsində sevgi, dəstək görərək böyümüş, Rzayev soyadını qəbul etmişdi. Məmmədxanlılar nəslinin R.Rzadan sonrakı xətlə gələn nümayəndələri, o cümlədən, Anar ədəbi-ictimaiyyətə bu soyadla tanınıb. Müəllifin "Sizsiz"-də üzərindən keçdiyi mətləblərə burada əhatəli şəkildə aydınlıq gətirməsi "Mübarizə bu gün də var" əsərini fərqləndirir. Əsərin yazılmasının bir səbəbi də Anarın zaman keçdikcə daha çox araşdırma aparıb əldə etdiyi yeni faktları təqdim etmək, demədiklərini söyləmək istəyi ilə bağlıdır.

Xalq şairi B.Vahabzadə "Şənbə gecəsinə gedən yol" kitabında "Avtobioqrafiyam" adlı hissədə doğum tarixi, uşaqlıq, məktəb illəri barədə yazmış, bioqrafiyasını yaradıcılığından ayrı təsəvvür etmədiyini bildirmiş, həyatının pünhan məqamlarını da oxucusu ilə paylaşmışdır. Əli Əmirli də "Ağdamda nəyim qaldı?" avtobioqrafik romanında həyatından bəhs edib. Dissertasiyada onun həyatı, keçirdiyi duyğular B.Vahabzadənin həyatı və duyğuları ilə müqayisəli şəkildə verilmişdir.

Tədqiqat işini sənədli-bioqrafik nəsrdə yazıçı təxəyyülü və avtobioqrafizm məsələsilə yekunlaşdırmağımızın əsas səbəbi bu əsərlərin nə dərəcədə real zəmin üzərində yarandığına diqqət yönəltməkdir. Sonda bu qənaətə gəlirik ki, tədqiq etdiyimiz əsərlər yazıçını, haqqında bəhs etdiyi insanı tanıyıb dərk etməkdə, mühiti ilə tanış olub müəyyən nəticəyə gəlməkdə əvəzsiz vasitə, etibarlı mənbədir. Həyat hekayəsini yazan sənətkarlar avtobioqrafiyasına, görkəmli şəxsiyyətlərin ömür yoluna işıq salarkən də onları düşündürən insan, şəxsiyyət və mühit probleminin həlli, keçmişi mühafizə edib gələcəyə ötürməklə xalqın tarixinin, mənəvi dəyərlərinin qorunması məsələsidir.

**"Nəticə"**də dissertasiyanın ayrı-ayrı fəsil və bölmələrində əldə olun-

muş elmi müddəalar ümumiləşdirilmişdir. Belə qənaətə gəlinmişdir ki, süjeti yazıçının həyatı üzərində qurulan sənədli-bioqrafik əsərlər həyat hekayəsi ilə yanaşı, mühiti, sosial-siyasi hadisələri, dövrün gerçəkliklərini öyrənmək, keçmişə nəzər salıb hazırkı vəziyyəti təhlil etmək baxımından böyük əhəmiyyət kəsb edir. Ə.Cəfərzadə, B.Vahabzadə, S.Azəri, S.Əhmədli, S.Səxavət, M.Oruc, Anar, Elçin, V.Babanlı və digər yazıçıların bioqrafik əsərlərini təhlil etdikcə məqsədlərinin baş verənləri xatırlayaraq keçmişi qorumaq və səmimi şəkildə etiraf etmək istəyi olduğu müəyyənləşir. Yazıçılar həyatlarının gizli məqamlarına da toxunub gerçəkləri söyləmiş, həqiqətə mümkün qədər sadiq qalmışlar. Sənədlilik, avtobioqrafik məqamların zənginliyi, bəhs edilən dövrün mənzərəsinin yaradılması baxımından əhəmiyyət kəsb edən bu əsərlərdə sistemlilik, faktolojilik diqqəti cəlb edir. Burada insanın kamilliyə doğru getdiyi yol izlənilərkən onun nəinki ailəsinə, əhatəsinə, həmçinin xalqına yararlı bir şəxsiyyətə çevrildiyi, bu zaman yaratdıqları ilə yanaşı, bioqrafiyasının öyrənilməsinə də zərurət yarandığı qənaətinə gəlirik. Vətən, xalq, azadlıq yazıçının həyat kredosu olduğundan bioqrafik nəsrdə xalqın həyatının əsas məqamlarına, tarixi, sosial-siyasi, mədəni hadisələrə də yer verilmişdir. Sənədli-bioqrafik nəsr vasitəsilə həyatından bəhs edilən insanların xarakterinə də bələd olur, vətənpərvər yazıçıların bioqrafiyasının, fəaliyyətinin xalqın həyatı ilə sıx şəkildə bağlı olduğu, avtobioqrafik əsərlərin sənətkarları xalqa daha da yaxınlaşdırdığı qənaətinə gəlirik. Avtobioqrafizmin güclü olduğu bu əsərlərdə təxəyyülün izləri əsərin bədii cəhətdən daha uğurlu alınmasına xidmət etmiş, onun sənədlilik qatına xələl gətirməmişdir.

Tədqiqatın əsas müddəaları bir sıra elmi jurnal və konfrans materiallarında ***elmi məqalə və tezislər*** şəklində öz əksini tapmışdır:

1. Sənədli-bioqrafik nəsrin spesifik xüsusiyyətləri / Doktorantların və gənc tədqiqatçıların XVII Respublika elmi konfransının materialları, Bakı, 18-19 dekabr, 2012, s.334-335

2. “Tələbə məhbusun etirafları” sənədli-bioqrafik romanında insan və zaman problemi // Dil və ədəbiyyat, Bakı, 2012, № 4(84), s.166-170

3.Xatirə-romanların sənədli-bioqrafik nəsrdəki mövqeyi / Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransının materialları, Bakı, 26-27 aprel, 2013, s.548-549

4. Sənədli nəsrdə ideya, dil və üslub məsələləri (M.Orucun “Son dayanacaqlardan biri” povesti əsasında // Bakı Universiteti xəbərləri, № 4, Bakı, Bakı Universiteti nəşriyyatı, 2013, s.47-53

5. Bioqrafik nəsrdə poetik dilin məna zənginliyi (Ə.Cəfərzadənin “Rübabə Sultanım” bioqrafik romanı əsasında / “Bəkir Çobanzadə və türkologiyanın müasir problemləri” mövzusunda Respublika elmi konfran-

sının materialları, Bakı, 31 may, 2013, s.312-17
6. Bioqrafik nəsrdə xalq təfəkkürünün bədii inikası və milli yaddaş problemi (Ə. Cəfərzadənin "Rübabə Sultanım" bioqrafik romanı əsasında) / VII Beynəlxalq Türk Mədəniyyəti, İncəsənəti və Mədəni irsin Mühafizəsi Simpoziumu, Bakı, 26-29 iyun, 2013, s.124-125
7. Bioqrafik nəsrdə xalq təfəkkürünün bədii inikası və milli yaddaş problemi / VII Uluslararası Türk kültürü, sanatı və kültürel mirası koruma sempozyumu, Bakü, 26-29 iyun, 2013, s.949-955
8. Sənədli-bioqrafik nəsrdə ideya, xarakter və portret cizgiləri / Doktorantların və gənc tədqiqatçıların XVIII Respublika elmi konfransının materialları, Bakı,19-20 dekabr, 2013, s.35-37
9. Sənədli-bioqrafik nəsrdə reallıq və bədii həqiqət (S.Azərinin "Tələbə məhbusun etirafları "romanı əsasında) / Azərbaycan filologiyasının aktual məsələləri mövzusunda Respublika elmi-nəzəri konfransının materialları, Bakı,17 dekabr, 2014, s.136-143
10. Sənədli bioqrafik nəsrdə Qarabağ həqiqətləri (Elçin Mehrəliyevin "Tale döyüşü" romanı əsasında) // Filologiya məsələləri, № 9, Bakı, "Elm və təhsil", 2014, s.301-311
11. "Sənədli-bioqrafik nəsrdə mövzu və ideya / Doktorantların və gənc tədqiqatçıların XIX Respublika elmi konfransının materialları, Bakı, 19-20 dekabr, 2014, s.231-236
12. Çağdaş Azərbaycan romanında sənədlilik və bədii təxəyyül / Bakı Dövlət Universiteti, Müasir ədəbiyyat məsələləri (elmi məqalələr toplusu), III, Bakı, "Elm və təhsil", 2014, s.209-229
13. Bəxtiyar Vahabzadə nəsrində avtobioqrafizm / Bəxtiyar Vahabzadənin anadan olmasının 90 illiyinə həsr olunmuş respublika elmi konfransının materialları, Bakı, 2015, s.100-103
14. "Elçinin nəsrində avtobioqrafizm" ("İlyas Əfəndiyev: şəxsiyyəti və yaradıcılığı" romanı əsasında) // Alfred Nobel adına Dnepropetrovski Universitetinin xəbərləri, "Filoloji elmlər" seriyası, №2 (10), 2015, s.52-59
15. Sənədli-bioqrafik əsərlərdə ideya aktuallığı və müasirlik. "Kitabi-Dədə Qorqud" və Türk dünyası, "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, Bakı, 29 dekabr, 2015, s.591-595
16. Sənədli nəsrdə Hüseyn Cavidin həyatı və elm, təhsil, müasirlik naminə mübarizəsi / "Hüseyn Cavid və müasir gənclik" (Hüseyn Cavid – 135) Beynəlxalq elmi konfransın materialları, Bakı, 23 oktyabr 2017, s.133-135.

**Илаха Сиявуш кызы Дадашова**

# ПОЭТИКА ДОКУМЕНТАЛЬНО-БИОГРАФИЧЕСКИЕ ПРОЗЫ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ
## (На основе материалов в период независимости)

## РЕЗЮМЕ

Диссертация состоит из “Введения”, трёх глав, “Заключения” и списка использованной литературы. Во “Введении” обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте и предмете, цели и задачах работы, методологической основе, степени изученности темы, об апробации и структуре диссертации. Основной целью диссертации является достижение научно-теоретической интерпретации документально-биографической прозы, написанной в азербайджанской литературе, оригинальности привнесенной в литературу, результатов поэтического исследования произведений, основных тенденций в современной прозе и получения научной идеи об этом процессе.

Первая глава диссертации под названием “Объединенност документальности и образности в прозе” состоит из двух подглав. В этих подглавах были исследованы такие проблемы, как “Взгляд на историю возвникновения документально-биографической прозы”, “Проблемы документально-художественного отображения социально-политических событий”. Являясь основной темой Азербайджанской прозы, Карабахский вопрос в документально-биографической прозе основывается на реальных событиях и описывается с чувством, kонкретно и детально.

Вторая глава под названием “История и современность документально-биографической прозы” состоит из двух подглав. В этих подглавах были привлечены к исследованиям таких вопросов, как “Мастерский взгляд на историю”, “Актуальность идеи и современность”. Здесь мы приходим к такому заключению, что несмотря на то, что биография занимает важное место в этих произведениях, писателя волнует и беспокоит судьба народа.

Третья глава диссертации называется “Особенности жанра документально-биографической прозы”. Данная глава состоит из двух подглав, в которых рассматривается такая проблема как “Типология жанров и проблема стиля”, “Автобиографизм и воображение писателя”.

В “Заключении” обобщаются основные резулътаты и выводы исследования.

**Ilaha Sayavush gizi Dadashova**

## POETICS OF DOCUMENTARY-BİOGRAPHİC PROSE IN MODERN AZERBAIJAN LITERATURE (Period of Independence on the basis of materials)

## SUMMARY

The thesis consists of introduction , three chapters , conclusion and the list of used literatures. In the "İntroduction", the relevance of the topic and its purpose and objective are detailed out, and also the methodological basis is defined, and the aims and tasks, the study level of the subject, scientific innovation are determined. Moreover, theoretical and practical significance, the structure and approbation of the thesis are analyzed. The main purpose of the dissertation is to achieve a scientifically-theoretical interpretation of the documentary-biographical literature written in Azerbaijan literature , the originality brought to literature , the results of poetic research of works, the main trends in the process of the contemporary prognostication and to get a scientific idea about this process.

The first chapter of the dissertation is divided into The two sections. The first part of the dissertation work called "Documentality and Artistic Combination in prose" consists of two chapters the problems such as "Review of the documentary-biographical prose history", "Problems of documentary and artistic reflection of socio-political events" are investigated. The main subject of Azerbaijani prose Karabakh issue was approached in documentary biographycal prose more sensitive, more accurate and with concrete facts.

The second part of the dissertation work called "Historical and Contemporary in Documentary Biographical Prose", consists of two chapters. İn the second part the problems such as "A Look at History", "Idea relevance and modernity" are investigated. Here is the result that , although the biography takes main place in this novels , the author's main thinking case is the fortune of people.

The third part of the dissertation work is called "Genre Peculiarities of Documentary-Biographical Generation". The part contains called "Genre typology and style problem", "The writer's imagination and autobiography".

"Conclusion" contains the generalization of the main results of the research.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**ИЛАХА СИЯВУШ кызы ДАДАШОВА**

# ПОЭТИКА ДОКУМЕНТАЛЬНО-БИОГРАФИЧЕСКИЕ ПРОЗЫ В СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ
**(На основе материалов в период независимости)**

**5716.01 Азербайджанская литература**

**А В Т О Р Е Ф Е Р А Т**
**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**БАКУ - 2018**